декларация основана на историческом Карском договоре и была подписана в День национального освобождения Азербайджана.

## AZERBAIJAN AND TURKEY'S ALLIANCE IN ALL FORMALIZING SHUSHA DECLARATION

*Aslanova Emma Ali, Namazova Elminaz Maharram*

***Summary***

The article reflects the signing of the "Shusha Declaration" on the alliance relations between the Republic of Azerbaijan and the Republic of Turkey by President of Azerbaijan Ilham Aliyev and President of Turkey Recep Tayyip Erdogan on June 15, 2021 in Shusha, the cultural capital of Azerbaijan. In addition, the article examines important issues such as the Declaration's qualification as a strategy that promises peace, stability and development to a large region after the Great Karabakh Victory, and the fact that the Shusha Declaration is based on the historic Kars Treaty and was signed on the National Liberation Day of Azerbaijan.

***Rəyçi:dos. S.Bağırova***
***Azərbaycan tarixi kafedrasının 23 oktyabr 2022-ci il tarixli iclasını 03saylı protokolu***
***Daxil oduğu tarix***

**UOT:94.(479.24).**

## BEYNƏLXALQ KONFRANSLARDA AZƏRBAYCANA QARŞI IDDIALAR

***Dosent Veyisov Arif Hacı oğlu, Mehdiyeva Həqiqət Şəadət qızı***
***Bakı Dövlət Universitetinin Qazax filialı***
***veyisov.arif@bk.ru, heqiqet.mehdiyeva.91@mail.ru***

**Xülasə:** *Məqalədə Bakı neftinin mənimsənilməsi məsələsinə aid üç böyük dövlətin-Böyük Britaniya, Almaniya və RSFSR kimi nəhəng dövlətlərin qarşıdurmasından bəhs edilir.*

**Açar sözlər:** Bakı nefti, Spa konfransı, London konfransı, Genuya konfransı, Kann konfransı, Haaqa konfransı, Türkiyə, Böyük Britaniya, Almaniya.

**Ключевые слова:**Бакинская нефть, Спанская конференция, Лондонская конференция, Генуэзская конференция, Каннская конференция, Гаагская конференция, Турция, Великобритания, Германия.

**Keys word:** the oil of Baki, Paris Peace Conference, Spa Conference, London Conference, Genoa Conference, Cannes Conference, Haaga Conference, Turkey, Great Britain, Germany.

Eyni zamanda məqalədə beynəlxalq konfranslarda nəhəng neft şirkətlərinin vaxtı ilə xarici kapitalistlərə məxsus Azərbaycanın neft sənayesindəki müəssisələrin qaytarılması tələbi öz əksini tapmışdır. Ancaq Azərbaycanın milli sərvətlərinin xarici kapitalistlər tərəfindən mənimsənilməsi baş tutmadı.

Birinci dünya müharibəsi ərəfəsində Rusiyada hasil edilən neftin 83 faizi Bakıda çıxarılırdı. Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar.

İngiltərənin baş naziri Lloyd Corcun fikrincə, müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatların hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı. Ona görə də Yaxın və Orta Şərqdə möhkəmlənmiş İngilətərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər mümkün olmadı.

1918-ci ilin yayında Azərbaycanın beynəlxalq vəziyyəti olduqca mürəkkəb idi. Burada Böyük Britaniya, Almaniya və RSFSR kimi üç böyük dövlətin siyasi və iqtisadi maraqları toqquşurdu. Onların hər biri Bakı neftinə yiyələnmək istəyir və bir-biri ilə rəqabət aparırdı.

Yaxın Şərqdə böyük hərbi qüvvəyə malik.olan və Sovet Rusiyasına qarşı hərbi müdaxiləni başlayan İngiltərə Bakını onun əlindən almağa və Almaniyanı Bakıya yaxın qoymamağa çalışırdı. İngiltərənin baş naziri D.Lloyd Corc öz memuarlarında yazırdı ki, “Biz o vaxt əli qoynunda oturmamışdıq”. [1,s.98]. Neft sənayesini də nəzarətdə saxlamağa çalışan ingilislər bu məqsədlərinə çatmaq üçün tezliklə Britaniya Neft İdarəsini təsis etdilər. Britaniya “Bibiheybət” neft şirkətinin sədri Herbert Alen 1918-ci ilin dekabr ayında Londonda bildirdi ki, “Britaniyanın rəhbərliyi altında lazimi surətdə təşkil olunmuş və gen-bol maliyyələşdirən Rusiya neft sənayesi Britaniya imperiyası üçün dəyərli gəlir mənbəyi ola bilər”. [2,s.185]. Sonralar ingilislərin 1918-ci ildə Bakıdakı hərəkətlərindən yazan İngiltərənin “Tayms” qəzeti bu cəhətin olduqca mühüm etirafı kimi yazmışdı: “Biz gəlmişdik ki, Bakının neft mədənlərini zəbt edək”. [3].

O zamankı, çox mürəkkəb bir siyasi şəraitdə Azərbaycanı bir çox dövlətlər və o, cümlədən ingilislər özlərindən asılı vəziyyətə salmağa çalışırdı. 1919-cu il noyabrın 17- də “Bakı və onun neft mədənlərini zəbt etmək”[4]. niyyəti ilə general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya daxil oldu.

Azərbaycan hökuməti ilə İngiltərə arasında 1919-cu il 23 may tarixli razılaşmaya görə Azərbaycandan İngiltərəyə aparılan mallar rüsumsuz, icazəsiz aparılmalı idi. Bu qərara əsasən Azərbaycandan İngiltərəyə Batum vasitəsilə 450000 pud mazut, 150 min pud ağ neft, 75000 pud benzin aparılmasına icazə verilmişdi.

General Lüdendorf belə hesab edirdi ki, Qafqazı ələ keçirməklə iqtisadi blokadanı yarmaq və Almaniyanı iqtisadi cəhətdən gücləndirmək, almanlarda qələbəyə inam oyatmaq mümkün olacaq. Lakin bunun üçün, onun açıqcasına etiraf etdiyi kimi, almanlara “Bakıya gəlib çıxmaq” lazım idi. [5.s,200]

Almaniyanın Qafqazı, o cümlədən Bakını ələ keçirmək cəhdlərinin ciddiliyi və ona böyük əhəmiyyət verildiyini Almaniya Baş Qərargahının 1918-ci ilin iyul ayında Belçikanın Spa şəhərində keçirilmiş məxfi müşavirəsi də aşkar şəkildə göstərirdi. Müşavirədə kayzer II Vilhelm, Hindenburq, Lüdendorf və digər generallar iştirak edirdilər.[6,s.347]

Almaniyanın hakim dairələrində Qafqaz İslam Ordusunun Bakını ala biləcəyinə inam yox idi, amma hərbi əməliyyatların gedişində neft mədənlərinin məhv edilə biləcəyindən də narahat olurdular. Bu məsələ Almaniyanın İstanbuldakı konsulunun 1918-ci il iyul ayının əvvələrində təqdim etdiyi hesabatında öz əksini tapmışdı. Hesabatda bolşeviklərin Bakını möhkəm müdafiə etdiyi göstərilir və onun alınmasının qeyri-mümkün olduğu ifadə edilirdi. Bu mülahizələrə əsaslanaraq, konsul Sovet Rusiyası ilə “Bakı məsələsi” üzrə danışıqlar aparmağı təklif edərək yazırdı: “Əgər biz bolşeviklərlə sazişə gələ bilsək, onda Bakının neft mədənləri və neft ehtiyatları bütövlükdə əlimizə salamat keçəcək. Əgər bunun əksinə olaraq, bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar mədənləri yandıracaqlar və ehtiyatlarından istifadə edə biləcəyik.”[7, s. 58-59].

Cənubi Qafqaz respublikalarının qarşıdakı konfransında iştirak etmək üçün İstanbula göndərilmiş Azərbaycan nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə özünü məharətli diplomat kimi göstərərək, həmin vaxt RSFSR, Almaniya və Türkiyə arasında Bakı neftindən istifadə etmək uğrunda gedən və diplomatik dairələrdə "Bakı məsələsi" adlandırılan siyasi mübarizənin mərkəzində oldu. Azərbaycan hökumətinə ünvanladığı hesabatlarından o, yaranmış vəziyyətin dərin təhlilini verir və həyata keçirilməli konkret tədbirlər təklif edirdi. M.H.Hacınskiyə məktubunda o, qeyd edirdi: "Sizə məlumdur ki, neft haqqında məsələ Azərbaycandan çox Türkiyə-Almaniya məsələsidir"[8].

Bakı nefti uğrunda mübarizənin fəal iştirakçısı olan Sovet Rusiyası isə onu həm hərbi, həm də diplomatik yolla öz əlində saxlamağa çalışırdı. Leninin rəhbərlik etdiyi RSFSR hökuməti bölgəyə kifayət qədər qoşun göndərmək imkanı olmadığına görə məqsədlərinə diplomatik xarakterli tədbirlər vasitəsi ilə nail olmaq ümidində idi. O, bir tərəfdən, Almaniya və onun müttəfiqlərindən Brest müqaviləsinin şərtlərinə əməl olunmasını və Qafqaz İslam Ordusunun Bakıya hücumunun dayandırılmasını tələb edir, digər tərəfdən isə Almaniyaya müəyyən iqtisadi güzəştlər etməyə, o cümlədən Bakıdan aldığı neftin bir hissəsini ona verməyə razı olduğunu bildirirdi.

İyulun 7-də V.İ.Lenin Saritsında olan İ.V.Stalinə göndərdiyi teleqramda yazırdı ki, almanlara neftin bir hissəsini alacaqlarına təminat verildiyi halda, Türkiyə qoşunlarının Bakıya hücumunu dayandırmalarına razı olduqları barədə Almaniya hökumətinin Berlindəki rus səfirinə etdiyi təklifindən Şaumyanı xəbərdar etsin. Lenim-deyirdi: "Əlbəttə ki, biz razı olacağıq". [9,s.30]

Stalin Şaumyana göndərdiyi məktubunda "Zaqafqaziya məsələsində bizim ümumi siyasətimiz ondan ibarətdir ki, biz almanları gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili işi olduqlarını rəsmən tanımağa məcbur etməliyik

Beləliklə, döyüşən Qafqaz İslam Ordusunun arxasında gizli sövdə aparan Almaniya və RSFSR Bakının taleyini həll etmək fikrində idilər. Azərbaycan 1918-ci il sentyabrın 16-da Azərbaycan və Türkiyə arasında bağlanmış müqaviləyə əsasən Batumdan keçməklə Bakıdan Türkiyə və Almaniyaya gündə ən azı 23 neft sisterindən ibarət yük qatarları yola salınmağa başlandı. Paris sülh konfransında Azərbaycan nümayəndələrinin səyi nəticəsində Almaniya ilə iqtisadi əlaqə yaratmaq mümkün olmuşdu. Belə ki, Azərbaycan nümayəndələri Almaniya nümayəndələri ilə hər iki dövlət arasında ticarət əlaqələri yaratmaq haqqında şifahi razılıq əldə etmişdilər. 1918-ci il oktyabr ayının əvvəlində Almaniya bu məqsədlə öz nümayəndələrini Azərbaycana göndərmişdi.

Paris sülh konfransında Azərbaycan nümayəndələri Amerika, İtaliya, Fransanın nümayəndələri ilə də Azərbaycanın həmin dövlətlərlə iqtisadi əməkdaşlıq etmək imkanını müzakirə etmişdilər. Fransanın hakim dairələri, birinci növbədə "Bakı nefti" naminə Türkiyə ilə yaxşı münasibətdə olmaq "arzusunda idi". Puankare yazırdı: "Biz Bakıya nüfuzlu neft siyasətimizi yeridə bilərik".[10.s,60]. Azərbaycan nümayəndəsi M.T.Hacınski 1919-cu il iyunun 19-da ABŞ və Fransa nümayəndələri ilə şifahi razılaşma əldə etmişdi.

1920-ci ilin yanvarında Azərbaycan hökuməti ilə ABŞ arasında bağlanmış ticarət müqaviləsinə əsasən, Azərbaycan Batum vasitəsilə oraya neft və neft məhsulları göndərməli, əvəzində isə oradan ərzaq məhsulları almalı idi.

1920-ci il aprel işğalından sonra da beynəlxalq münasibətlərdə keçirilən konfranslarda bu və ya başqa formada Azərbaycanla bağlı məsələlər müzakirə edilmiş və Azərbaycan nümayəndə heyətləri iştirak etmiş və ya iştirak etməyə cəhd göstərmişdir. Azərbaycanı bir tərəfdən, 1919-cu il Paris sülh konfransında iştirak etmək üçün buraya gələn, lakin aprel işğalından sonra qalmağa məcbur olan Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti

təmsil etməyə çalışmışdır. Birinci dünya müharibəsindən sonra Almaniyanın tərksilah edilməsinə və təzminat məsələlərinə həsr edilmiş, 1920-ci il iyulun 6-dan 16-dək keçirilən Spa (Belçika) konfransında iştirak etmək üçün Parisə gələn Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyəti konfransa iki sənəd təqdim etdi: Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsi haqqında və qarşıdakı ildə keçirilməsi nəzərdə tutulan London konfransında Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin iştirakına icazə verilməsi haqqında. Birinci sənəddə aprel işğalının səbəbləri və nəticələri göstərilirdi və iştirakçı dövlətlərin onu pisləmələri təklif edilirdi. Lakin müharibədən sonra öz daxili və beynəlxalq problemlərinə başı qarışmış Avropa dövlətləri ona xüsusi diqqət yetirmədilər. İkinci məsələ də soyuq qarşılandı.

Azərbaycanla bağlı məsələ 1921-ci il fevralın 21-dən martın 14-dək keçirilən London konfransının gedişində də müzakirə edildi. Konfransda iştirak edən İngiltərənin baş naziri Lloyd Corc inqilabi Türkiyə hökumətinin nümayəndə heyətinin başçısı Bəkir Cami bəyə təklif etmişdi: "Türkiyə Bakı neft mədənləri ilə birlikdə bütün Güney Qafqazı öz protektoratlığına götürsün"[11,s.190]. Lloyd Corcun bu təklifi arxasında bir çox tarixi- siyasi, iqtisadi və strateji məqsədlər dayanmışdı.

Əvvəla, İngiltərə bolşevizmin yayılmasından qorxurdu və ona Şərqdən vurulub çıxarılması kimi baxırdı. Çünki bolşeviklər Şərqi ingilislərdən azad etməyi təbliğ edirdilər. İngilis diplomatiyası yeni şəraitdə bolşevik Rusiyasından daha çox_Türkiyə ilə münasibətlər qurmağı və əməkdaşlığı səmərəli sayırdı.

İkincisi, Türkiyə-Rusiya yaxınlaşmasına yol verməmək, Türkiyə-Fransa yaxınlaşmasını sarsıtmaq və türkləri öz tərəfinə çəkmək istərkləri ilə bağlı idi. Lakin ingilislərin bu təkliflərini və istəklərini həyata keçirmək mümkün olmadı.

Üçüncüsü, türklərə Qafqazı götürməyi təklif edən Lloyd Corc sovet xarici ticarət komissarı L.Krasinlə görüşündə "Kral hökumətinin Qafqaz işləri ilə daha maraqlanmadığını və qarışmadığını" bildirməsi ingilis diplomatiyasının rus-türk münasibətlərinin soyuqlaşdırmaq cəhdlərini sübut edən fakt kimi qəbul edə bilər.

Birinci dünya müharibəsi 1919-cu il iyunun 28-də Almaniya ilə imzalanan Versal müqaviləsi ilə başa çatdı. Lakin Versal, sonra isə imzalanan Vaşinqton müqavilələri imperialist dövlətləri arasında ziddiyətləri daha da kəskinləşdirdi. Başlıca məsələlərdən biri Avropanın həll olunmamış maliyyə -iqtisadi problemlərini nizama salmaqdan ibarət idi. Eyni zamanda qərb dövlətləri sovet Rusiyasının çar mütləqiyyətinin və müvəqqəti hökumətin borclarını ödəməsi üçün müxtəlif vasitələrə əl atırdılar.

Bir sıra hökumət dairələri Rusiyanın təbii ehtiyatlarına, o, cümlədən Bakı neft mədənlərinə yiyələnməyi irəli sürürdülər. Fransa Almaniyanı daha da zəiflətmək xətti yeridir, ona çatacaq 52 faiz təzminatın tam ödəməsini tələb edirdi. O, həmçinin çağırılacaq Genuya konfransında nəinki Rusiyanın, habelə Azərbaycanın da iştirakını vacib sayırdı. Xüsusilə dünyanın nəhəng neft kompaniyaları Bakı neftini ələ keçirmək üçün yeni planlar irəli sürmüşdülər. Hər iki dünya tresti-ingilis "Royal Detc" və Amerika "Standart oyl" fasiləsiz olaraq Bakı konsessiyalarına yiyələnmək üçün mətbuat orqanlarını , siyasi xadimləri və diplomatları satın alırdılar.

Sovet Rusiyası özünü tanıtmaq və ona qarşı yönələn təzyiqləri dəf etmək üçün Genuya konfransında iştirak etməyi vacib saydı. Bolşevik hökuməti Genuya konfransında aşağıdakı iqtisadi məsələlərin həllini tələb edirdi; Rusiyanın borcları məsələsi həll edilsin; onun daxili işlərinə xarici dövlətlərin qarışması nəticəsində dağıdılmış daxili tikililər bərpa edilsin; Rusiyanın donanması özünə qaytarılsın.

Rusiya ondan tələb olunan çar hökumətinin 18 milyard rubl borcunu (Bunun 16 milyard rublu hərbi borclar idi) nəinki qəbul etmək istəmirdi, əksinə birinci dünya müharibəsi, vətəndaş müharibəsi və xarici hərbi müdaxilə nəticəsində dəymiş təxminən 39 milyard qızıl rubldan çox ziyanın müvafiq dövlətlər tərəfindən ödənilməsinə çalışırdı. Lakin sovet Rusiyası bu işin öhdəsindən təkbaşına gələ bilməzdi. Ona görə də Rusiya digər sovet respublikalarının, o cümlədən Azərbaycanın da onunla birlikdə konfransda iştirakını irəli sürdü.

1922-ci il yanvarın 17-də RSFSR Mərkəzi İcraiyyə Komitəsinin sədri M.Kalinin və Xalq Xarici İşlər Komissarı Çiçerin Bakı, Xarkov, Minsk, Tiflis, İrəvan, Buxara, Xivə və Çita şəhərlərinə rəhbər sovet hakimiyyət orqanlarına teleqram göndərərək mövcud şəraitdə Avropa konfransında "kapitalist hökumətləri ilə diplomatik mübarizə üçün" vahid cəbhə yaratmağı zəruri hesab etdi. Bütün respublikaların tam diplomatik birliyə təcili nail olmaları tələb edildi.

1922-ci il yanvarın 27-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin fövqəladə sessiyasında nümayəndə heyətinin tərkibi təsdiqləndi. Oraya K.V.Çiçerin (V.l.Leninin əvəzində) L.B. Krasin, M.M.Litvinov,N. N.Nərimanov, V.V.Vorovski, Y.E.Rudzutak və başqaları daxil idi.

1922-ci il fevralın 11-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri, Xalq Komissarlar Sovetinin sədrinin müavini və Xalq Xarici İşlər Komissarının imzası ilə N.Nərimanov Genuya konfransında "sovet respublikalarının vahid və ümumi səlahiyyətli nümayəndə heyətinin tərkibində" Azərbaycanın nümayəndəsi təyin edildi. Verilən mandatda ona Azərbaycanın mənafeyini qorumaq, bəyanatlar vermək, qərarlar qəbul etmək, aktlar və müqavilələr imzalamaq səlahiyyəti verildi.

Martın 25-də N.Nərimanov Moskvaya gəldi. Lakin Nərimanovun Genuya konfransına olan ümidləri az idi. Martın 27-də o, Stalinə yazırdı; "Mən şəxsən düşünürəm ki, Genuya konfransı bizə heç nə verməyəcəkdir, ona görə də əgər lazım bilsəniz, məni özünüzün Tatarıstan, Başqırdıstan və Qırğızıstan şərəfinizə götürün".[13,s.197].

N.Nərimanov Genuya konfransına yola düşərkən Bakının bir sıra əmək kollektivləri ilə görüşüb onların rəyini öyrəndi. Bakı Soveti 1922-ci il fevralın 14-də ona öz tapşırığını verdi.

Bakı Soveti eyni zamanda N.Nərimanova imperialist müdaxiləsi və vətəndaş müharibəsi dövründə Azərbaycanda yaratdıqları çox böyük dağıntıları beynəlxalq burjuaziyanın yadına salmağı, vurulmuş ziyanın əvəzini tələb etməyi də tapşırdı.

Genuyada beynəlxalq maliyyə və iqtisadi konfransı Antanta ölkələri Ali Şurasının Kann konfransının qərarlarına uyğun olaraq çağırıldı. 1922-ci il aprelin 10-dan mayın 19-dək keçirilən Genuya konfransında 29, İngiltərənin dominionları ilə birlikdə 34 dövlət iştirak edirdi.

Konfransda iştirak edən bolşevik nümayəndə heyətinin fəaliyyətinə dair göstərişləri şəxsən V.İ.Lenin vermişdi. Bu göstərişlər daha çox iqtisadi məsələlərin həllinə yönəldilmişdi, siyasi və təbliğat xarakteri daşıyırdı.

Genuya konfransında, Qərb dövlətlərinin nümayəndələri sovet ölkəsinə milliləşdirilmiş müəssisələri xarici kapitalistlərə qaytarmaq və çar borclarını ödəmək tələbini irəli sürdülər, lakin sovet nümayəndəliyinin müqaviməti ilə rastlaşdılar. N.Nərimanov sovet nümayəndəliyinin üzvi kimi konfransda Azərbaycanın, bütün sovet respublikalarının mənafeyini müdafiə etdi.

Konfransda siyasi komissiyanın beşinci iclasında Çiçerin Azərbaycan və digər sovet respublikaları adından sənəd imzalayaraq sədrə təqdim etdi: "Azərbaycan... Rusiya ilə müttəfiq respublikalardır". Lloyd Corc bu respublikaları Rusiya tərəfindən işğal edilmiş "sovet", Çiçerin isə onun əksinə olaraq "müttəfiq" adlandırırdı. Çiçerinə görə "bu respublikaların hamısı heç də "sovet" deyil, yalnız Rusiya ilə müttəfiq idilər".

1922-ci ilin aprel-may aylarında keçirilən Genuya konfransında Bakı nefti haqqında məsələyə xüsusi yer verilmişdi. 1921-1922-ci illərdə Azərbaycanın neft sənayesində və başqa regionlarda əmələ gəlmiş canlanma Qərbin neft inhisarçılarının ona yol tapmaq istəklərini qızışdırdı. Xarici kapitalistlər SSRl-dən çar Rusiyasının borclarını tələb etməklə yanaşı, Azərbaycan neft mədənlərinin keçmiş neft şirkətlərinə qaytarılmasını da istəyirdilər. Bu 1922-ci ildə Genuyada keçirilmiş beynəlxalq konfransda özünü daha qabarıq göstərdi.[14,s.117]. Bakı neftini ələ keçirmək və istifadə etmək üçün planlar quran neft şirkətləri xüsusi fəallıq göstərirdilər. Konfransda dünya dövlətlərinin yüzdən artıq nümayəndələrinin, habelə 250 neft şirkətləri nümayəndələrinin iştirakı çox məqamlardan xəbər verirdi.[15,s.599]. Genuya konfransı ilə paralel olaraq keçirilən neft krallarının qurultayı Bakı nefti uğrunda əsl mübarizəni və döyüşü xatırladırdı. Rəqabət aparan qruplar artıq keçmiş Bakı neft sənayesi səhmlərini almışdılar. İngiltərənin “Royal Detç” və ABŞ-ın “Standart Oyl” (indiki “Ekson”) şirkətləri Bakı neft konsessiyalarını almağa ümid edirdilər. “Nişanlısı çox olan Bakı neft ğözəlinə (ifadə S.Orconikidzenindir) dair ingilis planlarına qarşı ABŞ-Fransa-Belçika neft ittifaqı yaradıldı.

Neft kralları diplomatlara təsir etməyə çalışırdılar. Diplomatlar da öz növbəsində konsessiyaların keçmiş sahiblərinə yenidən verilməsini tələb edirdilər.

Qərb dövlətləri isə Bakı neft mədənləri yalnız öz keçmiş sahiblərinə qaytarıldıqdan

sonra konsessiya müqaviləsi bağlanılmasının mümkünlüyünü bildirirdilər. Bu təklifi isə bolşevik nümayəndə heyəti qəbul etmirdi. Beləliklə, konsessiyalar məsələsi həll edilmədi və açıq qaldı.

1922-ci il mayın 19-da konfrans rəsmi şəkildə bağlandı. Moskvaya qayıdan nümayəndə heyəti adından N.Nərimanov, Y.Rudzutak və A.loffe hesabat verdilər. (G.Çiçerin müalicə olunmaq üçün xaricdə qaldı). RK (b) P MK plenumu və ÜRMİK-in üçüncü sessiyası konfransda iştirak haqqında hesabatı dinləyib bəyəndi.

N.Nərimanovun 1922-ci il iyunun 1-də Bakı Sovetinin iclasında Genuya konfransının nəticələri haqqında məruzəsindən sonra sovet nümayəndəliyinin fəaliyyətinin bəyənilməsi, eyni zamanda N.Nərimanovun Bakı fəhlələrinin tapşırığını yüksək səviyyədə yerinə yetirməsi barədə hesabatını bəyəndi. Sonralar N.Nərimanov “Genuya xatirələrini” yazdı.

Genuya konfransının yarımçıq qalmış işini 1922-ci il iyunun 15-dən iyulun 20-dək Haaqada (Hollandiya) keçirilən konfrans davam etdirdi. Lakin Qərb dövlətlərinin Azərbaycanın milli sərvətlərini yenidən qarət etmək cəhdləri baş tutmadı. Konfransın birinci on günü sakit keçdi. Lakin iyunun 26-da əsl döyüş başlandı. Bu, sovet diplomatı Litvinovun Haaqaya gəlməsi ilə bağlı idi. Litvinov Rusiyanın pula şiddətli ehtiyacı olduğunu irəli sürərək, hər şeydən əvvəl, kredit kimi müəyyən məbləğ tələb edərək bildirdi ki, bu istək yerinə yetirilmədikcə Rusiya nəinki kapitalistlərə heç bir imtiyaz verməyəcəkdir, hətta keçmiş sahibkarlara hər hansı təzminat və ümid verə bilməyəcəkdir, müzakirəyə qoşulmayacaqdır. Rusiya diplomatiyası kredit almaq şansını əldən buraxmaq istəmirdi.

Haaqada böyük dövlətlər bolşevik nümayəndə heyətinə kollektiv müqavilə bağlamağı təklif etdilər. Lakin rus nümayəndə heyəti separat sazişə və sövdələşmələrə çalışırdı. Bolşevik nümayəndə heyəti bununla Qərb dövlətləri arasında ixtilafların yaradılmasına və bolşevik hökumətinin tanınmasına nail olmaq istəyirdi. Litvinov güzəştlərə getməyə hazır olduğunu bildirdi və hökumətinə teleqram vurub məsləhətləşmək üçün üç günlük möhlət istədi. Konfransı təşkil edən dövlətlər ona etiraz etmədilər. Lakin Moskavanın cavabını gözləməyən ikinci yarımkomissiya konfrasın sona çatdığını elan etdi.

Haaqa konfransının qətnaməsində bolşevik çevrilişindən sonra sahiblərinin razılığı olmadan əmlaklarının sovet orqanları tərəfindən müsadirə edilməsi pislənildi. Beləliklə,

konfranslar bolşevik Rusiyasının Azərbaycanın xarici siyasət fəaliyyətini öz əlinə aldığını, onun müstəqil suveren hüqtfqlarını kobudcasına pozduğunu təsdiq etdi.[16,s.276].

### *Ədəbiyyat*


1. Ллойд Джордж Д. Военные мемуары . Том. VI, Москва, 1937, с.98
2. Токаржевский Е.А, Из истории и гражданской войны в Азер. Баку, 1957, с.185
4. Azərbaycan Respublikasının Dövlət Arxivi - ARDA, f.970, siy,1.iş.149,v.49.
5. Людендорф Э. Мой воспоминания в войне 1914-1918 г. Том 1. Москва, 1924, с.200
6. "Azərbaycan tarixi". 1900-1920-ci illər, V. cild, Bakı, 2008,səh,347
7. Н.Пипия Г. Политика Германии в Закавказье 1918 г. Тбилиси, 1971,с 58
8. Большевик" (журнал), 1938,№2, с. 30
9. "Azərbaycan" qəzeti, 11 oktyabr 1918-ci il.
10. M. Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998,səh. 190
11. История дипломатии. Том. III.Москва, 1945, с.266
12. Документ "Претензии России к государствам, ответственным за интервенцию и блокаду" Том. V. Москва, 1960, с.117
13. "Azərbaycan tarixi", 1920-1941-ci illər, VI cild, Bakı, 2008, səh. 599
14. Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, səh. 276


## ПРЕТЕНЗИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНЫХ КОНФЕРЕНЦИЯХ

***Вейисов Ариф Гаджи оглы, Мехдийева Хагигат Шаадет гызы***

***Резюме***

В статье повествуется о соперничестве трех великих государств- Вел икобритании, Германии и РСФСР в Азербайджане из-за противостояния в вопросе присвоения Бакинской нефти.

Одновременно в статье нашли свое отражение факты сильного давления на международных конференциях крупных нефтяных компаний с требованием возвращения предприятий принадлежащих когда-то иностранным капиталистам властвовавшим в свое время в нефтяной промышленности Азербайджана.

## ISSUES AGAIUST AZERBAIJAN AT THE INTERNATIONAL CONFERENCES

***Veyisov Arif Haci, Mehdiyeva Hagigat Shaadat***

***Summary***

The article deals with the collision of interests of the three largest countries such as Great Britain, Germany and Russian Federation (former USSR) for mastering Baki oil in.

It also contents some questions connected with Azerbaijan in international conferences, especially in Genuya conference, about some plans prepared by the strongest oil companies for mastering Baki oil again and giving them back to those companies which dominated in the past.

***Rəyçi: İmran Məmmədov***
***18 oktyabr 2022-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 26 oktyabr 2022-ci il***